## ● Məmmədov Eşqin

# Son Ümid

Payız məni darıxdırır İlahi!
Qəribliyim sanki yenə qalıbdır.
Sevinc addım -addım ötür yanımdan
Arzularım çiskin çənə qalıbdır.

Nə zalınmış bu ömrümü düzəldən
Bir ömür ki, düz çıxmayıb yüz əldən
Mənim bəxtim belə gətirib əzəldən
Sabahlarım min dünənə qalıdır.

Axı necə çıxım gedim xoş yerə
Bəsdi ruhum, bəsdir, məndən düş yerə
Ümidlərimi xərcləmişəm boş yerə
O ümiddən bircə dənə qalıbdır.

Uzaqlaşdın məndən yenə yüz qarış
Bu taleyim, vallah mənə qışdı-qış
Gâh borandı, gâh tufandı, gâh yağış
Son ümidim sönə -sönə qalıbdır.